# ƏDLİYYƏ

www.justice.gov.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı

881 ÇAĞRI MƏRKƏZİ

№ 04 (265) aprel 2026


## Ədliyyə naziri Xaçmaz şəhərində vətəndaşları qəbul edib





**Ədliyyə naziri Fərid Əhmədov 3 aprel tarixində Xaçmaz şəhərində vətəndaşları qəbul edib.**

Qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Quba, Qusar, Şabran, Siyəzən və Xaçmaz rayonlarından ümumilikdə 58 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı Nazirliyin aidiyyəti struktur qurumlarının rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

## Nazir Fərid Əhmədov "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirib



**Ədliyyə naziri Fərid Əhmədov "Yüksəliş" müsabiqəsinin Mentorluq Proqramı çərçivəsində sayca beşinci müsabiqənin qalibləri Məmməd Balacanov və Ramil Hüseynzadə ilə görüşüb.**

Fərid Əhmədov qalibləri müsabiqədə əldə etdikləri uğur münasibətilə təbrik edib, müsabiqənin onların gələcək inkişafında önəmini vurğulayıb. Nazir qaliblərin peşəkar inkişafına dəstək məqsədilə öz təcrübəsini bölüşüb, onlara gələcək fəaliyyətlərində faydalı olacaq tövsiyələr verib. Fərid Əhmədov "Yüksəliş" müsabiqəsinin potensiallı kadrların üzə çıxarılmasında mühüm rol oynadığını vurğulayıb və dövlət idarəçiliyinə töhfə verməsi baxımından mühüm təşəbbüs olduğunu qeyd edib.

Nazir qaliblərin fikirlərini dinləyib, mentorluq proqramı çərçivəsində görüləcək işləri qeyd edib, birillik fərdi inkişaf planının icrasından bəhs edib. Görüşdə həmçinin vurğulanıb ki, qaliblərin mentorluq proqramını yüksək səviyyədə həyata keçirməsi üçün Ədliyyə Nazirliyi tərəfindən lazımi şərait yaradılacaq.

Qaliblər Mentorluq Proqramının onların idarəetmə bacarıqlarının formalaşmasına mühüm töhfə verdiyini bildirib, bu çərçivədə əldə etdikləri bilik və təcrübənin praktiki baxımdan əhəmiyyətini vurğulayıblar.

"Yüksəliş" müsabiqəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 26 iyul 2019-cu il tarixli Sərəncamı ilə təsis edilib. Müsabiqə qalibləri bir il müddətində mentor dəstəyi ilə fərdi inkişaf planı əsasında fəaliyyət göstərir və 20 min manat məbləğində mükafat əldə edirlər.

Sayca altıncı "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 10 dekabr 2025-ci il tarixində müvafiq Sərəncam imzalanıb.

## "Konstitusiya və Suverenlik İli" münasibətilə elan edilmiş amnistiya aktı 22.935 şəxsə şamil edilib

**Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü əsasında Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında" 19 dekabr 2025-ci il tarixli Qərarın icrası başa çatıb.**

Amnistiya aktının icrası qeyri-hökumət təşkilatları, media və digər vətəndaş cəmiyyəti nümayəndələri də cəlb edilməklə 4 ay müddətində həyata keçirilib.

Dövlətin humanizm siyasətinin növbəti təzahürü olan bu qərar tətbiq olunan şəxslərin sayına görə indiyədək qəbul edilmiş ən geniş amnistiyadır. Belə ki, sayca 13-cü olan bu amnistiya aktı ümumilikdə 22.935 şəxsə şamil edilib.




Amnistiya tətbiq olunan şəxslərin 5.348-i müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasından azad edilib. Bundan əlavə, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 3.555 nəfərin cəzasının çəkilməmiş müddəti 6 ay azaldılıb.

Azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş 9.714 şəxsə də amnistiya tətbiq edilib. Belə ki, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 7.970, islah işləri cəzasına məhkum olunmuş 734, ictimai işlər cəzasına məhkum edilmiş 82, cərimə cəzasına məhkum edilmiş 741, hərbi xidmət üzrə məhdudlaşdırma cəzasına məhkum edilmiş 175, intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş 12 şəxs bu cəzalardan azad edilib. Eyni zamanda şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş 1.059 məhkum barəsində də amnistiya tətbiq olunub.

Həmçinin məhkəmələrin icraatında olan işlər üzrə 1.676, ibtidai istintaq və təhqiqat orqanlarının icraatında olan işlər üzrə isə 1.583 olmaqla, ümumilikdə 3.259 şəxs cinayət məsuliyyətindən azad edilib.

Qeyd edək ki, 1996-cı ildən etibarən ümumilikdə qəbul edilmiş 13 amnistiya aktı dövlətin cəza siyasətində humanizmə, insan hüquqlarının daha səmərəli təminatına, sosial ədalətə, eləcə də bərpaedici yanaşmalara üstünlük verdiyini bir daha nümayiş etdirir.

# Ədliyyə Nazirliyində Qazaxıstan Ədalət Akademiyasının rektoru ilə görüş keçirilib

**Qazaxıstan Respublikasının Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyasının rektoru Kanat Musinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olub.**

Səfər proqramına uyğun olaraq nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsinə ehtiramını bildirib. Nümayəndə heyəti daha sonra Şəhidlər xiyabanını və Zəfər abidəsini ziyarət edib.

Səfər çərçivəsində Qazaxıstan nümayəndə heyətinin Azərbaycan ədliyyə sistemi ilə yaxından tanışlığı məqsədilə bir sıra görüş və tanışlıq tədbirləri təşkil olunub. Nümayəndə heyəti Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında hakimliyə namizədlər üçün keçirilən kursun gedişi ilə tanış olub, Akademiyada görüş keçirib.



Ədliyyə Nazirliyində nazir müavini Toğrul Hüseynovla baş tutan görüşdə ölkələr arasında hüquqi sahədə əməkdaşlığın mövcud vəziyyəti müzakirə edilib, müxtəlif istiqamətlərdə, o cümlədən ədliyyə akademiyaları arasında tədris sahəsində birgə tədbirlərin və təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb.

Eyni zamanda, Türk Dövlətləri Təşkilatı çərçivəsində də əməkdaşlığın uğurla inkişaf etdiyi Türk Ədliyyə Təlim Şəbəkəsinin, habelə digər ixtisaslaşmış platformaların təcrübə mübadiləsi üçün mühüm imkanlar yaratdığından bəhs olunub.

Görüşün sonunda hüquqi təhsil, elmi-tədqiqat fəaliyyəti və ədliyyə sisteminin rəqəmsallaşdırılması istiqamətində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Qonaqlar Ədliyyə tarixi muzeyi ilə də tanış olublar. Bununla yanaşı, onların Azərbaycan Respublikasının Ali Məhkəməsində görüşü, Bakı şəhəri Yasamal rayon məhkəməsinə səfəri təşkil edilib.

# Qazaxıstandan olan hakimliyə namizədlər Ədliyyə Akademiyasında təcrübə keçiblər

**Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasında Qazaxıstandan olan hakimliyə namizədlər üçün iki həftəlik təcrübə proqramı keçirilib.**

13-24 aprel tarixlərini əhatə edən təcrübə proqramı Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyası arasında imzalanmış Əməkdaşlıq memorandumuna əsasən təşkil olunub.

Məhkəmə-Hüquq Şurasının da dəstəyi ilə təşkil olunan proqram çərçivəsində Qazaxıstandan olan 28 nəfər əyani, 30 nəfər distant olmaqla ümumilikdə 58 hakimliyə namizəd Azərbaycan məhkəmə sisteminin fəaliyyəti, məhkəmə icraatının təşkili, hüquqi tədqiqat metodları, mediasiya, hakimlərin peşə hazırlığı və rəqəmsal ədliyyə sahəsində müasir yanaşmalar üzrə bilik və bacarıqlarını inkişaf etdiriblər.

Təlimlə yanaşı, iştirakçılar Ədliyyə Nazirliyinin Probasiya xidmətində, Məhkəmə Ekspertizası Mərkəzində, Bakı istintaq təcridxanasında, eləcə də 7 saylı Bakı "ASAN xidmət" mərkəzində, Konstitusiya Məhkəməsində, Ali Məhkəmədə, Bakı Apellyasiya Məhkəməsində, Sumqayıt Məhkəmə Kompleksində və Yasamal Rayon Məhkəməsində olaraq bu qurumların





fəaliyyətləri ilə yaxından tanış olublar.

Təcrübə proqramının sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

Təcrübə proqramı Azərbaycan və Qazaxıstan arasında dostluq münasibətlərinin və peşəkar əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət etməklə yanaşı, iki ölkənin məhkəmə-hüquq orqanları arasında bilik və təcrübə mübadiləsini dərinləşdirir, gələcək hüquqşünasların peşəkar inkişafına töhfə verir və ədliyyə sahəsində qarşılıqlı əməkdaşlığın davamlı şəkildə genişlənməsinə zəmin yaradır.

Son illərdə bir sıra ölkələrin məhkəmə və hüquq orqanlarının mütəxəssis hazırlanması məqsədilə Ədliyyə Akademiyasına müraciət etməsi Akademiyanın bu sahədə formalaşdırdığı yüksək institusional potensialı təsdiqləyir. Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, hüquqşünasların peşəkarlığının artırılması və ixtisaslı kadr hazırlanması istiqamətində görülmüş ardıcıl tədbirlər xarici dövlətlərin Azərbaycan təcrübəsinə artan marağını daha da gücləndirib.

# Bakıda Türk Məhkəmə Ekspertizası Şəbəkəsinin təsis toplantısı keçirilib

**Aprelin 3-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin 15 məhkəmə ekspertizası idarəsinin nümayəndə heyətlərinin iştirakı ilə Türk Məhkəmə Ekspertizası Şəbəkəsinin təsis toplantısı keçirilib.**

Tədbir çərçivəsində iştirakçılar Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını, "Türk şəhidliyi" abidəsini və Zəfər parkını ziyarət ediblər.

Təsis toplantısında Azərbaycan Respublikasının ədliyyə nazirinin müavini Abiddin Hüseynov, Türkiyə Respublikasının ədliyyə nazirinin müavini Can Tuncay, Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün və Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Ömər Kocaman iştirak ediblər.

Bununla yanaşı, tədbirə Qazaxıstan, Qırğızıstan və Özbəkistan Respublikasının məhkəmə ekspertizası qurumlarının məsul şəxsləri də qatılıblar.

Toplantı çərçivəsində iştirakçı ölkələrin məhkəmə ekspertizası qurumları tərəfindən təqdimatlar keçirilib. Təqdimatlarda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın məhkəmə ekspertizası sistemləri, mövcud imkanlar və gələcək əməkdaşlıq perspektivləri barədə məlumat verilib.

Tədbirin yekununda Türk Məhkəmə Ekspertizası Şəbəkəsi haqqında Memorandum imzalanıb.

Qeyd edək ki, bu təşəbbüs Türk dövlətləri arasında məhkəmə ekspertizası sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi, institusional əməkdaşlığın gücləndirilməsi və vahid yanaşmaların formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.





# Ədliyyə Nazirliyi bölgələrdə yaşayan vətəndaşlar üçün videoqəbullar keçirib







**Ədliyyə Nazirliyi vətəndaş məmnunluğunun artırılması, ədliyyə orqanlarına əlçatanlığın təmin olunması, regionlarda yaşayan vətəndaşların müraciətlərinə operativ və yerində baxılması məqsədilə mütəmadi olaraq videoqəbullar təşkil edir.**

Aprelin 21-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Mübariz Əhmədov tərəfindən Gəncə, Şəki, Bərdə regional ədliyyə idarələri ilə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbul keçirilib.

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda İcra xidməti və Bələdiyyələrlə iş baş idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı 9 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Regionlarda yaşayan vətəndaşlar videoqəbullarda iştirak etmək üçün qebul@justice.gov.az elektron poçt ünvanına və ya Nazirliyin regional ədliyyə idarələrinə müraciət etməklə qəbula yazıla bilərlər.







**Aprelin 23-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini Abiddin Hüseynov tərəfindən Gəncə, Göyçay, Şirvan, Bərdə, Lənkəran və Şəki regional ədliyyə idarələri ilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videokonfrans vasitəsilə qəbul keçirilib.**

Virtual qəbul məntəqələri vasitəsilə keçirilən videoqəbulda Notariat, qeydiyyat və reyestr baş idarəsi, İnsan Resursları idarəsi və Tibb baş idarəsinin fəaliyyət istiqamətləri ilə bağlı 9 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Qəbula qatılan vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.





**Aprelin 17-də Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov tərəfindən Gəncə, Bərdə, Lənkəran, Şirvan, İmişli və Göyçay regional ədliyyə idarələri ilə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbul keçirilib.**

Videoqəbulda penitensiar sahə ilə bağlı qəbulda iştirak etmək üçün müraciət edən 14 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

Qəbula qatılan vətəndaşlar belə görüşlərin region sakinləri üçün əhəmiyyətini vurğulayıb, operativ həll mexanizmlərindən məmnunluqlarını ifadə ediblər.



**Mart-aprel ayları ərzində Nazirliyin Sənəd dövriyyəsi və vətəndaşların müraciətləri ilə iş idarəsi və regional ədliyyə idarələrinin təşkilatçılığı ilə Nazirliyin Cəzaların icrasına nəzarət baş idarəsi, İstintaq idarəsi, Bələdiyyələrlə iş baş idarəsi, Tibb baş idarəsi, İnsan resursları idarəsi və İcra xidmətinin rəhbərliyi tərəfindən Bərdə, Gəncə, Göyçay, İmişli, Lənkəran, Şəki, Şəmkir, Sumqayıt və Şirvan regional ədliyyə idarələri ilə birlikdə videokonfrans vasitəsilə həmin qurumların yurisdiksiyalarına daxil olan rayonların sakinləri üçün videoqəbullar keçirilib.**

Videoqəbullarda Nazirliyin fəaliyyət istiqamətləri üzrə 67 vətəndaşın müraciəti dinlənilib, vətəndaşlara qanunvericiliyin tələbləri ətraflı izah olunub və qəbul zamanı təqdim edilmiş müraciətlər zəruri tədbirlərin görülməsi üçün nəzarətə götürülüb.

# Ədliyyə Nazirliyinin "881" Çağrı Mərkəzi aprel ayında 20 minə yaxın zəngi cavablandırıb

**Ədliyyə Nazirliyinin "881" Çağrı Mərkəzi müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, fəaliyyətin təkmilləşdirilməsi üçün təhlillərin aparılması və vətəndaş məmnunluğunun artırılmasına xidmət edir.**

Çağrı Mərkəzi iş vaxtı ərzində fasiləsiz olaraq Nazirliyin bütün fəaliyyət sahələri üzrə vətəndaşların müraciətlərinin cavablandırılmasını və yönləndirilməsini həyata keçirir.

Aprel ayı ərzində "881" Çağrı Mərkəzinə məhkəmə qərarlarının icrası, notariat, qeydiyyat, penitensiar sahə, bələdiyyələrin fəaliyyəti, məhkəmə ekspertizası, probasiya və digər aidiyyəti sahələr üzrə daxil olan 19.912 müraciətdən 19.600-ü cavablandırılıb. Vətəndaşlara göstərilən xidmət səviyyəsi (daxil olan zənglərin 30 saniyə ərzində cavablandırmaya qəbul faizi) 91.51 faiz olub, habelə vətəndaş müraciətləri ilə bağlı orta xidmət müddəti 1 dəqiqə 59 saniyə təşkil edib.




Bundan başqa, Çağrı Mərkəzində müraciətlərin birbaşa cavablandırılması ilə yanaşı ən son innovativ həlləri əks etdirən proqram təminatı vasitəsilə interaktiv səsli menyu, "geriyə zəng" və "zəng sifarişi" xidmətləri ilə ay ərzində 312 itirilmiş zənglə əks əlaqə yaradılıb və qeyri-iş günlərində müraciət edən 410 vətəndaşın suallarının cavablandırılması təmin edilib.

Qeyd edək ki, xidmət keyfiyyətinin dəyərləndirilməsi məqsədilə zəng bitdikdən sonra Çağrı Mərkəzi tərəfindən vətəndaşlara SMS göndərilir. Vətəndaşlar həmin SMS-dəki linkə daxil olub qısa sualları cavablandıraraq və əlavə şərh yazaraq göstərilən xidməti qiymətləndirə bilərlər.

Ədliyyə Nazirliyi Çağrı Mərkəzinin inkişaf etdirilməsi, qanunvericiliyin tələblərinə və müasir standartlara uyğun təşkili, vətəndaş məmnunluğunun, operativliyin və göstərilən xidmətin keyfiyyətinin artırılması üçün davamlı olaraq tədbirlər həyata keçirir.

# Rəqəmsal ekspertiza dövrü başlayır: yeni Konsepsiyanın əsas nəticələri

**Azərbaycanda məhkəmə ekspertizası sahəsində yeni inkişaf mərhələsinin əsası qoyulur.**

"Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya" bu sahədə islahatların istiqamətini müəyyən edən strateji sənəd kimi qəbul olunub. Sənəd məhkəmə-hüquq sisteminin keyfiyyət transformasiyasına yönəlmiş kompleks yanaşmanı əks etdirir.

Konsepsiyada normativ-hüquqi bazanın təkmilləşdirilməsi, rəqəmsallaşdırma, kadr potensialının inkişafı və maddi-texniki təminat kimi istiqamətlər bir-biri ilə qarşılıqlı əlaqədə nəzərdə tutulub.

Sənədin ən mühüm komponentlərindən biri məhkəmə ekspertizası fəaliyyətinin rəqəmsal transformasiyasıdır. Bu istiqamətdə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 noyabr tarixli "Məhkəmə Ekspertizası" informasiya sisteminin yaradılması haqqında Fərmanı mühüm institusional və hüquqi baza rolunu oynayır. Fərman məhkəmə ekspertizası prosesində şəffaflığın, operativliyin və obyektivliyin artırılmasını, bu sahədə bütün əsas prosedurların elektron platforma üzərindən həyata keçirilməsini nəzərdə tutur.

Yeni yaradılacaq sistem vasitəsilə ekspertiza təyin edilməsi ilə bağlı qərarların (qərardadların) və müqavilələrin elektron qaydada qəbulu, onların icraata yönəldilməsi və prosesin real vaxt rejimində izlənilməsi mümkün olacaq. Eyni zamanda, hər bir məhkəmə eksperti və istifadəçi üçün şəxsi kabinetlərin yaradılması, ekspertiza müddətlərinə nəzarət mexanizmlərinin tətbiqi və gecikmələrlə bağlı avtomatlaşdırılmış bildirişlərin göndərilməsi idarəetmədə çevikliyi əhəmiyyətli dərəcədə artıracaqdır.

Sistem çərçivəsində ekspert rəylərinin və vəsatətlərin gücləndirilmiş elektron imza ilə təqdim edilməsi, məlumatların arxivləşdirilməsi və digər dövlət informasiya ehtiyatları ilə inteqrasiyası isə həm hüquqi etibarlılığı, həm də məlumat mübadiləsinin səmərəliliyini təmin edən əsas amillərdir.

Bununla yanaşı, sistemin tətbiqi məhkəmə ekspertizası sahəsində vahid məlumat və bilik bazasının formalaşdırılmasına, statistik və analitik hesabatların hazırlanmasına, eləcə də bəzi ekspertiza növlərinin elektron qaydada aparılmasına imkan yaradacaq.

Vahid informasiya sisteminin yaradılması və dövlət qurumları arasında inteqrasiyanın təmin edilməsi ekspertiza proseslərini həm strukturlaşdıracaq, həm də sürətləndirəcək.

Həmçinin Konsepsiyada maddi-texniki bazanın gücləndirilməsi də xüsusi yer tutur. Müasir laboratoriyaların qurulması, yeni texnologiyaların tətbiqi və infrastrukturun yenilənməsi prosesi həm rəqəmsallaşmanı təmin edəcək, həm də ekspertiza fəaliyyətində süni intellekt alətlərinin tətbiqi imkanlarını artıracaqdır. Xüsusilə yüksək texnoloji tədqiqat metodlarının tətbiqi mürəkkəb işlərin daha qısa müddətdə və daha etibarlı şəkildə araşdırılmasına imkan verəcək.

Bununla yanaşı, Konsepsiya potensial riskləri də nəzərə alır. Maliyyə resurslarının məhdudluğu, rəqəmsal bacarıqların yetərli olmaması və sistemlərarası inteqrasiyada mümkün gecikmələr kimi amillərin təsirinin neytrallaşdırılması üçün konkret mexanizmlər müəyyən edilib.

Ümumilikdə, Konsepsiya məhkəmə ekspertizası sahəsində keyfiyyət, sürət və etibarlılıq balansını təmin etməyə yönəlmiş kompleks rəqəmsal islahat modelidir. Onun uğurlu icrası nəticəsində yalnız ekspertiza sisteminin deyil, bütövlükdə ədalət mühakiməsinin effektivliyinin yüksəlməsi gözlənilir.

# Məhkəmə ekspertizasında yeni mərhələ: özəl məhkəmə ekspertləri fəaliyyətə başlayır



**Azərbaycan Respublikasında məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində həyata keçirilən ardıcıl islahatlar çərçivəsində məhkəmə ekspertizası sahəsinin inkişafı prioritet istiqamətlərdən biri kimi müəyyən olunub. Bu məqsədlə qəbul edilmiş "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya" ekspertiza xidmətlərinin keyfiyyətinin artırılmasını, beynəlxalq standartlara uyğunlaşdırılmasını və institusional imkanların genişləndirilməsini nəzərdə tutur.**

Konsepsiyada xüsusi yer tutan istiqamətlərdən biri özəl məhkəmə ekspertizası institutunun səmərəli fəaliyyətə başlaması və inkişafıdır. Bu institutun tətbiqi məhkəmə ekspertizası sahəsində alternativliyi təmin etməklə yanaşı, ekspertiza xidmətlərinə çıxış imkanlarını genişləndirəcək, işlərin baxılma müddətinin qısaldılmasına və məhkəmə proseslərinin daha operativ həyata keçirilməsinə mühüm töhfə verəcək.

Özəl məhkəmə ekspertlərinin fəaliyyətə başlaması həmçinin rəqabətli mühitin formalaşmasına şərait yaradacaq. Bu isə ekspert rəylərinin keyfiyyətinin yüksəldilməsinə, yeni texnologiyaların və innovativ yanaşmaların tətbiqinə, eləcə də beynəlxalq təcrübənin daha effektiv inteqrasiyasına imkan verəcək.

Qeyd edək ki, özəl məhkəmə ekspertləri ilə məhkəmə ekspertizası idarələrində fəaliyyət göstərən ekspertlərin hüquq və vəzifələri, habelə məsuliyyəti eyni hüquqi çərçivə əsasında müəyyən edilir. Bu yanaşma ekspert rəylərinin obyektivliyinin, qərəzsizliyinin və mötəbərliliyinin təmin olunmasına xidmət edir. Eyni zamanda, bütün ekspertlər üçün vahid peşə standartlarının tətbiqi ədalət mühakiməsində bərabərliyin qorunmasına və hüquqi təminatların gücləndirilməsinə imkan yaradır.

"Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsində özəl məhkəmə eksperti qismində fəaliyyət göstərmək istəyən şəxslər üçün aydın və konkret hüquqi tələblər müəyyən olunub. Namizədlər müvafiq ixtisas üzrə ən azı 10 illik iş təcrübəsinə malik olmalı, yaxud fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsinə və ya xüsusi biliklərini təsdiq edən beynəlxalq səviyyədə tanınmış sənədlərə sahib olmalıdırlar.

Qeyd olunan beynəlxalq sənədlərin siyahısı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilib. Eyni zamanda, siyahıda olmayan sənədlər üzrə də əlavə qiymətləndirmə aparılması mümkündür.

Bununla yanaşı, özəl məhkəmə eksperti olmaq istəyən şəxslər üçün məhkəmə ekspertizası fəaliyyətinə dair qanunvericiliyi, ekspert rəyinin hazırlanması qaydalarını və etik davranış normalarını əhatə edən icbari təlim və namizədlərin peşəkar hazırlıq səviyyəsinin qiymətləndirilməsi məqsədilə müsahibə mərhələsi nəzərdə tutulub.

Qanuna uyğun olaraq, şəhadətnamə almış şəxslər barədə məlumatlar dərhal Məhkəmə Ekspertləri Reyestrinə daxil ediləcək və yalnız bundan sonra onların məhkəmə eksperti kimi fəaliyyəti mümkün olacaq. Qeyd olunan mexanizm bu sahədə şəffaflığın və hesabatlılığın təmin edilməsinə yönəlib.

Fiziki və hüquqi şəxslər, eləcə də onların nümayəndələri qanunvericilikdə müəyyən edilmiş hallarda məhkəmə ekspertizasının aparılması üçün həm məhkəmə ekspertizası idarələrinə, həm də özəl məhkəmə ekspertlərinə müraciət etmək hüququna malikdirlər. Bu zaman ekspertiza xidmətləri tərəflər arasında bağlanan müqavilə əsasında həyata keçirilir və sifarişçinin vəsaiti hesabına maliyyələşdirilir.

Müqavilə çərçivəsində ekspert bilə-bilə yalan rəy verməyə görə məsuliyyət daşıdığı barədə məlumatlandırılır və bu hal onun imzası ilə təsdiq edilir. Bu yanaşma ekspert fəaliyyətində qərəzsizlik, obyektivlik və peşə məsuliyyətinin təmin edilməsinə xidmət edir.

Həyata keçirilən islahatların əsas məqsədi müasir, şəffaf, çevik və etibarlı məhkəmə ekspertizası sisteminin formalaşdırılması, bununla da vətəndaşların hüquq və azadlıqlarının daha effektiv təmin edilməsinə, ədalət mühakiməsinin çevikliyinin yüksəldilməsinə nail olmaqdır.

Qeyd edək ki, "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya"da cari ildə özəl məhkəmə ekspertizası institutunun tətbiqinə başlanılması nəzərdə tutulur. Konsepsiya çərçivəsində özəl məhkəmə ekspertizası institutunun mərhələli şəkildə inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən şəxslərə metodiki və təşkilati dəstəyin göstərilməsi, həmçinin ictimai etimadın formalaşdırılması istiqamətində kompleks tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

# Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri üçün ixtisasartırma təlimləri təşkil olunub



**15-16 aprel tarixlərində Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri üçün məhkəmə-fonoskopik və kompüter-texniki ekspertizalar üzrə ixtisasartırma təlimləri keçirilib.**

Təlimlər "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında Saziş" çərçivəsində təşkil edilib.

Təlim proqramına uyğun olaraq iştirakçılara səslərin araşdırılması zamanı süni intellekt faktorunun müəyyən edilməsi, audio materialların autentikliyinin yoxlanılması, zədələnmiş mobil telefonlar və digər elektron məlumat daşıyıcılarından informasiyanın bərpası və əldə olunması üsulları barədə nəzəri və praktiki biliklər təqdim edilib.

Praktiki məşğələlər zamanı iştirakçılar real nümunələr üzərində işləyərək müasir kriminalistik metod və texnologiyalarla tanış oldular.

Təlimlər Türkiyə Respublikasının Daxili İşlər Nazirliyinin Jandarma Genel Komutanlığının Kriminal Daire Başkanlığının təcrübəli ekspertləri tərəfindən keçirilib.

Qeyd edək ki, bu cür beynəlxalq təlimlərin təşkili ekspertlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə, məhkəmə ekspertizası sahəsində innovativ yanaşmaların tətbiqinə və ümumilikdə ədliyyə sisteminin inkişafına mühüm töhfə verir.

# Ali təhsil müəssisələrində ədliyyə orqanlarında karyera imkanları barədə infosessiyalar keçirilir








**Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) tələbələr üçün ədliyyə orqanlarında karyera imkanlarına həsr olunmuş infosessiyalar təşkil edilib.**





Ümumilikdə 800-ə yaxın iştirakçının qatıldığı tədbirlərdə gənclərə ədliyyə orqanlarında qulluğa qəbul qaydaları, karyera imkanları, peşə perspektivləri və könüllülük fəaliyyəti barədə ətraflı məlumat verilib.

Görüşlərdə, həmçinin icra məmuru vəzifələri üzrə hüquq təhsili tələbinin ləğvi ilə bağlı tətbiq edilən yeniliklər diqqətə çatdırılıb. Bildirilib ki, bu dəyişikliklər bütün ixtisaslar üzrə ali təhsilli məzunların ədliyyə orqanlarında fəaliyyət imkanlarını artırır.

Eyni zamanda, könüllülük və təcrübə proqramlarının üstünlükləri, bu proqramların gənclərin peşəkar inkişafında rolu qeyd olunub, tələbələrin erkən mərhələdə praktiki bilik və bacarıqlar əldə etmələrinin əhəmiyyəti vurğulanıb.

Tədbirlərin sonunda tələbələri maraqlandıran suallar cavablandırılıb, ədliyyə orqanlarında karyera qurmaq istəyən gənclərə müvafiq tövsiyələr verilib.

Bu görüşlərin davamlı olaraq respublikanın digər ali təhsil müəssisələrində də keçirilməsi nəzərdə tutulur.

# ADA Universitetində keçirilən XIV Karyera Sərgisində ədliyyə orqanlarında karyera imkanları təqdim olunub

**Ədliyyə Nazirliyi aprelin 24-də ADA Universitetində təşkil olunan XIV Karyera Sərgisində iştirak edib.**







Sərgi çərçivəsində iştirakçılara ədliyyə orqanlarında qulluğa qəbul qaydaları, mövcud karyera imkanları, peşə perspektivləri, eləcə də könüllülük fəaliyyəti barədə ətraflı məlumat verilib. Eyni zamanda, icra məmuru vəzifələri üzrə hüquq təhsili tələbinin ləğvi ilə bağlı tətbiq edilən yeniliklər diqqətə çatdırılıb. Bildirilib ki, bu dəyişikliklər müxtəlif ixtisaslar üzrə ali təhsilli məzunların ədliyyə orqanlarında fəaliyyət imkanlarını genişləndirir.

Bununla yanaşı, sərgi iştirakçılarına Ədliyyə Nazirliyində mövcud könüllülük və təcrübə proqramları təqdim edilib, bu proqramların üstünlükləri qeyd edilib. Tələbələrin erkən mərhələdə praktiki bilik və bacarıqlar əldə etməsində bu proqramların mühüm rol oynadığı xüsusi olaraq diqqətə çatdırılıb.

# Bələdiyyələr tərəfindən yerli büdcə gəlirlərinin artırılması istiqamətində müsbət nəticələr əldə olunub




**Bələdiyyələrin maliyyə vəziyyətinin yaxşılaşması - yerli büdcə gəlirlərində artım tendensiyası 2025-ci ildə də davam edib.**
